Xalq qəzeti.- 2025.- 13 iyun (№120).- S. 9

# Rəsul Rza ocağında mükafatlandırma

**Rəsul Rzanın Ev muzeyində AMEA-nın prezidenti, akademik İsa Həbibbəyliyə Xalq şairinin şərəfinə təsis edilmiş beynəlxalq ədəbi mükafat təqdim olunub. Muzeyin direktoru Fidan Rzayeva mərasimdə bildirib ki, yeni fəaliyyətə başlayan xatirə ocağı ilk addımını 2025-ci il Rəsul Rza mükafatının akademik İsa Həbibbəyliyə təqdim edilməsi ilə atır.**



Rəsul Rza Ədəbiyyat Ocağı İctimai Birliyinin sədri, Milli Məclis sədrinin müavini, akademik Rafael Hüseynov Xalq şairi barədə tədqiqatlarına görə builki Rəsul Rza mükafatının AMEA-nın prezidenti, akademik İsa Həbibbəyliyə verildiyini bildirib. Azərbaycan ədəbiyyatşünaslığını önəmli elmi-nəzəri araşdırmaları ilə zənginləşdirən akademik İsa Həbibbəylini təltif münasibətlə təbrik edən Rafael Hüseynov görkəmli alimin xalq şairləri Rəsul Rza və Nigar Rəfibəylinin və Xalq yazıçısı Anarın yaradıcılığı haqqında dəyərli əsərlərinin müəllifi olduğunu vurğulayıb. Milli Məclis sədrinin müavini Rəsul Rza mükafatını AMEA rəhbərinə təqdim edib.

Yazıçılar Birliyinin sədri, Anar akademik İsa Həbibbəylinin Azərbaycan ədəbiyyatının tədqiqində sanballı xidmətlərini qeyd edərək atası Rəsul Rza və anası Nigar Rəfibəyli barədə dəyərli elmi əsərlərinə görə məxsusi razılığını söyləyib.

Sonda AMEA prezidenti yüksək təltifə və yeni açılmış Rəsul Rza ocağında birinci mərasimdə mükafatlandırılmasına görə təşəkkürünü bildirib.

*T.AYDINOĞLU*
*XQ*